Təqaüd proqramı çərçivəsində aşağıdakı xərclər ödənilir:

- təhsil xərcləri;
- 750 avro məbləğində aylıq məvacib;
- 950 avro həcmində təyyarə bileti xərci;
- yerləşmə ilə bağlı 70 avro məbləğində məvacib;
- tədris materialları üçün 465 avro həcmində məvacib;
- təqaüd başa çatdığı zaman ölkəni tərk etməklə bağlı 50 avro məbləğində məvacib;
- yaşayış icazəsinin alınması ilə bağlı xərclər;
- tibbi sığorta xərcləri.

Proqramda iştirak etmək arzusunda olan namizədlər:

- ali təhsilli olmalı;
- müvafiq sahədə ən azı 3 illik iş təcrübəsinə malik olmalı;
- ingilis dilini mükəmməl səviyyədə bilməli (namizədlərdən TOEFL, TOIEC, IELTS və s. testlərin nəticələri tələb oluna bilər).

Proqramda iştirak etmək arzusunda olan namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- orta təhsil haqqında şəhadətnamənin surəti;
- diplom və diplom əlavəsinin surəti;
- 2 ədəd tövsiyə məktubu;
- 4 ədəd fotoşəkil.

*Qeyd: sənədlər ingilis dilinə tərcümə edilməli və notarial qaydada təsdiq olunmalıdır. Sənədlər, həmçinin CD formatında (skayner edilməklə) da təqdim edilməlidir.*

Təqaüd proqramı haqqında ətraflı məlumat və ərizə formasını http://www.ciim.ac.cy/easyconsole.cfm/id/51 internet səhifəsindən əldə edə bilərsiniz. Sənədlər cari ilin 10 iyun tarixinə qədər Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinə (K.Məhərrəmova–tel:496-33-11; dax:248) təqdim olunmalıdır.